**Azərbaycan Respublikası Milli Məclisinin xaricdə yaşayan soydaşlara və həmvətənlərə Dünya azərbaycanlılarının həmrəyliyini günü münasibətilə təbriki barədə**

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN QƏRARI

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikası Milli Məclisinin xaricdə yaşayan soydaşlara və həmvətənlərə Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibətilə təbrikinin mətni bəyənilsin.

**Azərbaycan Respublikası Ali Sovetinin sədri**
**İ. QƏMBƏROV.**

Bakı şəhəri, 29 dekabr 1992-ci il.
№ 431.

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN XARİCDƏ YAŞAYAN SOYDAŞLARA VƏ HƏMVƏTƏNLƏRƏ DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ MÜNASİBƏTİLƏ TƏBRİKİ

Əziz yurddaşlarımız! Qədim və qəhrəman Azərbaycan xalqının "övladları taleyin hökmü ilə planetimizin hər tərəfinə səpələnmişlər. Dil, tarix, mədəniyyət, mənəviyyat telləri onları elə birləşdirmişdir ki, qərinələrdən bəri qismətlərinə düşən ayrılıq, ömürlərinə qənim kəsilən qəriblik bu yaxınlıq və doğmalıq qarşısında acizdir.

Neçə-neçə nəsil ana Vətən həsrəti ilə dünyasını dəyişmiş, yad ellərin torpaqlarına qarışmışlar. Bütün ömrünü həsrətlə yaşayanların çoxu isə uzun illər boyu sağ-salamat olduğunu doğma ellərdəki əzizlərinə çatdırmaqdan belə çəkinmişlər.

Totalitar kommunist rejiminin, milyonlarla insanın taleyinə balta çalan quruluşun süqutu indi neçə-neçə insanın qəlbindəki ümid çırağını yandırmışdır.

Hörmətli soydaşlarımız, azad və suveren Azərbaycan—Yer üzərində yaşayan bütün həmvətənlərimizin yeganə dövlət qurumu olan bu zəngin məmləkət bundan sonra bütün övladlarının müdafiəçisi, ümid yeri, arxası və dayağı olacaqdır. Dekabrın 31-i dünyada yaşayan bütün azərbaycanlıların həmrəyliyi günü kimi qeyd olunur. Bundan sonra həmin gün tarixə xalqımızın birliyi, həmrəyliyi günü kimi daxil olacaqdır.

Milli Məclis Sizi bu əlamətdar gün münasibətilə təbrik edir, harada yaşamağınızdan, hansı işlə məşğul olmağınızdan asılı olmayaraq vətənimiz, anamız Azərbaycanın bu çətin günlərində onun tərəqqisi və qüdrətlənməsi naminə daha əzmlə çalışmağınızı arzu edir.